# AQRAR SAHƏNİN İNKİŞAFI PRİORİTET MƏSƏLƏDİR

***Martın 2-də Azərbaycan Milli Elmlər Akademiyası Rəyasət Heyətinin növbəti iclası keçirilib. İlk olaraq AMEA prezidenti, akademik Akif Əlizadə AMEA Rəyasət Heyəti aparatının Hüquq və kadrlar idarəsinin rəisi, hüquq üzrə fəlsəfə doktoru Rasim Ağasiyevə 60 illik yubileyi münasibətilə və "Azər-İlmə" MMC-nin direktoru, tarix üzrə fəlsəfə doktoru Vidadi Muradova Azərbaycan xalçaçılığının inkişafındakı xidmətlərinə görə AMEA-nın Fəxri Fərmanlarını təqdim edib.***

Tədbirdə yeni iqtisadi şəraitdə ərzaq təhlükəsizliyi problemi müzakirə olunub. Aparılan müzakirələrdə respublikanın regionlarında fəaliyyət göstərən alim və mütəxəssislərin də yaxından iştirakı, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin AMEA-nın 70 illik yubileyinə həsr olunmuş Ümumi yığıncağında aqrar sahənin elmi təminatının yüksəldilməsinə dair çağırışlarına cəlb edilməsi üçün AMEA-nın regional bölmələri, ayrı-ayrı universitet və institutlar arasında telekonfrans təşkil edilib.

Genetik Ehtiyatlar İnstitutunun direktoru, AMEA-nın müxbir üzvü Zeynal Əkpərov "Yeni iqtisadi şəraitdə ərzaq təhlükəsizliyi problemi və onun həllində elmin rolu" mövzusunda məruzə ilə çıxış edərək ölkədə kənd təsərrüfatının mövcud vəziyyəti, problemlər və onların həlli yollarını diqqətə çatdırıb. Ulu Öndər Heydər Əliyevin həyata keçirdiyi elmi əsaslı torpaq islahatlarının respublikada aqrar sahənin inkişafında mühüm rol oynadığını deyən Zeynal Əkpərov ölkə Prezidenti İlham Əliyevin bu siyasəti uğurla davam etdirdiyini, ərzaq təhlükəsizliyinə tam nail olunmasını mühüm hədəflərdən biri kimi müəyyənləşdirdiyini söyləyib. AMEA-nın müxbir üzvü qeyd edib ki, 2004-cü illə müqayisədə ötən il kənd təsərrüfatı məhsullarının istehsalı 48,8 faiz artıb, bu da qeyri-neft sektorunun inkişafına dəyərli töhfə hesab edilməlidir.

İnstitut direktoru Azərbaycanda qeyri-neft sektorunda aqrar sahənin çəkisinin böyük olduğunu vurğulayıb: "Qeyri-neft sektoru üzrə idxal-ixracın mövcud vəziyyəti onu göstərir ki, aqrar sahənin inkişaf etdirilməsi üçün geniş imkanlar var. Kənd təsərrüfatında istehsalın artım dinamikası əsasən aqrar sahənin elmi təminatının dünya standartları səviyyəsinə çatdırılmasından, cəlb olunmuş investisiyalardan, müasir texnologiyaların tətbiqindən daha çox asılıdır".

Zeynal Əkpərov qeyd edib ki, AMEA-nın "Xızı" Kənd Təsərrüfatı İstehsalat Kompleksi tərəfindən respublikanın müxtəlif regionlarında yerləşməklə nümunəvi təsərrüfat istehsalat layihələri həyata keçirilir. Bu təsərrüfatın bazasında aqrobiznes sektorunun bütün sahələrini əhatə edəcək müasir Aqroparkın yaradılması nəzərdə tutulur.

Məruzə dinlənildikdən və mövzu ətrafında geniş müzakirələr aparıldıqdan sonra Rəyasət Heyəti qərar qəbul edib. Yeni çevik iqtisadi modelə keçməklə əlaqədar Prezident yanında tanınmış alimlərin iştirakı ilə Elmi Məsləhət Şurasının, ölkədə Bitki Seleksiya Mərkəzinin və aqrobiznes sektorunun bütün sahələrin əhatə edəcək müasir Aqroparkın yaradılması ilə bağlı müvafiq orqanlar qarşısında məsələ qaldırılması qərara alınıb. Həmçinin AMEA-nın institutları tərəfindən yaradılmış üzvi və üzvi mineral gübrələrin geniş sənaye istehsalının təşkili, aqrar sahənin kadr potensialının gücləndirilməsi məqsədilə beynəlxalq təcrübənin öyrənilərək AMEA-nın magistr və doktorant hazırlığında tətbiqi, ölkənin ali təhsil müəssisələrinin müvafiq fakültələri ilə əlaqələrin genişləndirilməsi məqsədəuyğun hesab edilib.

İclasda bir sıra elmi-təşkilati məsələlər də müzakirəyə çıxarılıb. İlk olaraq Azərbaycanın satirik jurnalı olan "Molla Nəsrəddin"in və AMEA-nın həmtəsisçisi, akademik, Azərbaycanın xalq şairi Səməd Vurğunun 110 illik yubileylərinin keçirilməsi məsələlərinə baxılıb. AMEA-nın vitse-prezidenti, akademik İsa Həbibbəylinin mövzular ətrafında çıxışından sonra Rəyasət Heyəti yubileylərin keçirilməsi haqqında qərarlar qəbul edib.

Sonra AMEA prezidentinin Gənclər mükafatının təsis edilməsi məsələsinə baxılıb. AMEA-nın akademik-katibi, akademik Rasim Əliquliyev bildirib ki, son illər AMEA-da həyata keçirilən islahatların əsas istiqamətlərindən birini gənclər siyasəti təşkil edir.

Akademik vurğulayıb ki, AMEA-da gənclərin intellektual potensialının inkişafı, onların daha geniş miqyasda elmi və elmi-təşkilati fəaliyyətə cəlb edilməsi, ölkənin ictimai, sosial və mədəni həyatında intellektual gəncliyin fəallığının daha da artırılması məqsədilə kompleks tədbirlər həyata keçirilir.

Rəyasət Heyəti müasir dövrdə gənclərin elmi fəaliyyətinin daha da stimullaşdırılması məqsədi ilə AMEA prezidentinin təbiət elmləri və ictimai-humanitar elmlər üzrə Gənclər mükafatının təsis olunması və Əsasnaməsinin təsdiq edilməsi haqqında qərar qəbul edib. Əsasnaməyə uyğun olaraq mükafatın verilməsi müsabiqə əsasında həyata keçiriləcək.

*(Davamı 2-ci səhifədə)*



# AQRAR SAHƏNİN İNKİŞAFI PRİORİTET MƏSƏLƏDİR

*(Əvvəli 1-ci səhifədə)*

Sonra Rəyasət Heyəti aparatının İctimaiyyətlə əlaqələr və elmin populyarlaşdırılması idarəsinin tərkibində "Elm TV İnternet televiziyası" şöbəsinin yaradılması müzakirə olunub. Məsələ ətrafında çıxış edən AMEA-nın akademik-katibi, akademik Rasim Əliquliyev bildirib ki, Akademiyada e-elmin inkişafı istiqamətində həyata keçirilən mühüm tədbirlərdən biri AMEA-nın İnformasiya Texnologiyaları İnstitutu tərəfindən Elm TV İnternet televiziyasının formalaşdırılması olub. Müasir standartlara uyğun iş təcrübəsinə malik Elm TV İnternet televiziyası artıq bir neçə ildir ki, AMEA-nın müxtəlif qurumları tərəfindən keçirilən mühüm elmi tədbirlər haqqında videomaterialların hazırlanması, birbaşa yayımının həyata keçirilməsi, həmçinin dünya elminin nailiyyətləri ilə bağlı videoçarxların çəkilişi sahəsində uğurla fəaliyyət göstərir. Akademik AMEA-da informasiya siyasəti üzrə işin daha çevik həyata keçirilməsini, həmçinin vahid rəhbərlik tərəfindən uğurlu koordinasiya edilməsini təmin etmək məqsədilə Elm TV İnternet televiziyasının İctimaiyyətlə əlaqələr və elmin populyarlaşdırılması idarəsinin tərkibində fəaliyyət göstərməsinin məqsədəuyğun hesab edib.

Rəyasət Heyəti qeyd olunanları nəzərə alaraq, idarənin tərkibində Elm TV İnternet televiziyası şöbəsinin yaradılmasına dair qərar qəbul edib. Qərara əsasən, Xatirə Cabbarzadə yeni yaradılmış şöbənin müdiri vəzifəsinə təyin olunub.



Daha sonra Coğrafiya İnstitutunun strukturu və Azərbaycan ədəbiyyatının tanınmış nümayəndələrindən biri, yazıçı-publisist, tərcüməçi, naşir və ictimai xadim Ceyhun Hacıbəylinin 125 illik yubileyinin Tədbirlər planı təsdiq olunub. Rəyasət Heyəti Botanika İnstitutunun doktorantı Aynurə Cəfərovanın Almaniyanın Hohenheim Universitetinə göndərilməsi haqqında da qərar qəbul edib.